



# Prezidentin böyük töhfəsi

## ADAU-nun müəllim və tələbələri göstərdiyi diqqət və qayğıya görə dövlət başçısına minnətdardırlar







**Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunda böyük çəkiyə malik olan kənd təsərrüfatı sürətlə inkişaf edir. Dövlət əhalinin ərzağa olan tələbatını əsasən öz imkanları hesabına ödəmək üçün çoxlu sayda layihələr həyata keçirir ki, bunun da müsbət nəticələri bu gün hər kəsin gündəlik həyatında hiss olunur.**

Söz yox ki, qazanılan bu uğurlar elmin son nailiyyətlərinin tətbiqi sayəsində mümkün olur ki, bunun da nəticəsində maddi nemətlər bolluğu, ərzaq təhlükəsizliyi və ekoloji sağlam kənd təsərrüfatı məhsullarının istehsalı gündən-günə artır. Deməli, aqrar bölmənin müasir inkişafı həm də bu sahənin elmi əsaslara söykənməsini və yüksək ixtisaslı kadr hazırlığını tələb edir. Bu sahədə isə ölkəmizi kadrlarla təmin edən yeganə ali təhsil ocağı Azərbaycan Dövlət Aqrar Universitetidir.

Bu ali təhsil ocağı Azərbaycan, eləcə də dünya aqrar elmi üçün minlərlə alim və mütəxəssis yetişdirib. Universitet həm də ölkəmizin kənd təsərrüfatının daha da inkişaf etdirilməsində elmi tədqiqatların mühüm mərkəzinə çevrilib. Məhz buna görə də Azərbaycan dövləti, şəxsən respublika Prezidenti İlham Əliyev bu ali təhsil ocağının professor-müəllim və tələbə heyətinə daim qayğı göstərir, onların elmi fəaliyyətlə səmərəli məşğul olmalarına, tələbələrin yüksək səviyyədə təhsil almalarına və sosial məsələlərinin həllinə həssaslıqla yanaşır. Göstərilən bu diqqət və qayğı nəticəsində son bir neçə ildə universitetin maddi-texniki bazası daha da möhkəmlənmiş, tələbələrin nəzəri biliklərinin artırılmasında və sonrakı əmək fəaliyyətlərində istifadəsinin təmin edilməsi istiqamətində müsbət irəliləyişlərə nail olunmuşdur. Cəsarətlə demək olar ki, bu gün tələbələrin müasir səviyyədə yüksək bilik əldə etmələri məqsədilə universitetdə hər cür şərait yaradılıb, bu, həm də ali təhsil müəssisəsinin üzərinə düşən vəzifələrin həllinə doğru atılan addımları daha da sürətləndirib. Universitetin beynəlxalq əlaqələrinin inkişafı nəticəsində tələbələr dünyanın bir sıra aqrar universitetlərində təhsillərini və tədqiqatlarını uğurla davam etdirirlər. Keçən tədris ilində universitetin 100-ə yaxın tələbəsi müxtəlif əməkdaşlıq proqramları çərçivəsində dünyanın bir sıra universitetlərində qısa və uzunmüddətli təcrübə mübadiləsi keçmişdir.

Prezident İlham Əliyevin siyasi iradəsi ilə ölkəmizdə aqrar sahənin inkişafı istiqamətində həyata keçirilən tədbirlər bu gün müsbət nəticələrini verməkdədir. İndi respublikanın elə bir bölgəsi yoxdur ki, orada inkişaf etmiş fermer təsərrüfatlarına rast gəlinməsin. Universitet rəhbərliyi həmin təsərrüfatlarla iş birliyi quraraq əməkdaşlıq əlaqələrini gündən-günə genişləndirir. Nəticədə təsərrüfatlara elmi kömək göstərilməklə yanaşı, tələbələrin istehsalat təcrübələri yaranır.

Son zamanlar universitetdə təcrübə saatlarına daha çox yer verilir. Universitetin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov deyir ki, kənd təsərrüfatı ixtisası alan tələbələr auditoriyalarda deyil, sahələrdə hazırlanmalıdır. Onun sözlərinə görə, təcrübə əldə edilən biliyin sınaq meydanıdır. Bu sınaqdan keçənlər şübhəsiz ki, aqrar sahədə dəyərli kadrlar hesab olunurlar.

Bütün bunlarla yanaşı, universitetin özündə də bir neçə tədris-təcrübə mərkəzi yaradılıb ki, bu da bütövlükdə elmi nəzəriyyənin təcrübəyə tətbiqini asanlaşdırıb. Baytarlıq təbabəti və zoomühəndislik fakültəsində ümumi sahəsi 254 kvadratmetr olan "Quşçuluq tədris-təcrübə mərkəzi" uğurla fəaliyyət göstərir. Bununla yanaşı, mərkəzin 200 kvadratmetr sahəsində müasir tələblərə cavab verən ferma inşa edilmiş, 30 kvadratmetr ərazidə laboratoriya yaradılmış və ən müasir avadanlıqlarla təchiz edilmişdir. Burada quşların bəslənməsində, yetişdirilməsində, tələbələrə quşçuluq sahəsində müasir texnologiyaların öyrədilməsində elmi-tədqiqat işləri uğurla aparılır.

Azərbaycanda balıqçılıq geniş formada olmasa da inkişaf etməkdə olan sahələrdəndir. Şübhəsiz ki, hər hansı bir sahənin inkişafı üçün mütəxəssis hazırlığı ən vacib məsələlərdəndir. Bu vacib sahənin inkişaf etdirilməsi üçün universitetdə balıqçılıq üzrə ali təhsilli mütəxəssis hazırlığına başlanılmışdır. Bu məqsədlə qapalı balıqyetişdirmə laboratoriyası yaradılmışdır. Laboratoriya ən müasir avadanlıqlarla təchiz edilmiş, işlər tam sistemli şəkildə qurulmuşdur. Törədicilərin tez inkişafı, yetişməsi və balıqların ana sürülərində tez formalaşması üçün optimal şərait yaradılmışdır. Laboratoriyada müxtəlif növ balıqların yetişdirilməsi üçün 27 akvarium, 8 ədəd dördbucaq, 2 ədəd çökdürücü-ana hovuz, balıqları əmtəəlik çəkiyə çatana kimi saxlamaq üçün 16 ədəd beton hovuz inşa edilmişdir. Laboratoriyada dərs auditoriyası da yaradılmışdır.

Dövlət başçısının tapşırığına əsasən son illər Azərbaycan Dövlət Aqrar Universitetində zəngin maddi-texniki baza yaradılmışdır ki, bunun da sayəsində tələbələr təhsil aldıqları müddətdə yüksək ixtisaslara yiyələnirlər. Hazırda universitetdə bakalavriat və magistratura səviyyəsində 30-dan çox ixtisas üzrə mütəxəssis hazırlığı aparılır. 7 fakültənin əyani və qiyabi təhsil formalarında 5 minə yaxın tələbə təhsil alır. Onların tədrisi ilə 480-dək professor-müəllim heyəti məşğul olur.

Son illər tələbələrin təhsilə marağının artırılması məqsədilə innovativ texnologiyaların tətbiqinə daha çox üstünlük verilir. Hazırda universitetin hər 4 nəfər tələbəsinə bir kompüter düşür. Bununla yanaşı, xeyli sayda smart-lövhə, notbuk, proyektor, mikroskop, plotter, elektron tərəzi və sair alınaraq tələbələrin istifadəsinə verilmişdir.

Bundan başqa, tələbələrin intellektual səviyyəsinin artırılması və asudə vaxtlarının səmərəli təşkili məqsədilə son 3 ildə ödənişsiz ingilis dili, kompüter, dizayn üzrə kurslar da təşkil edilmişdir. Universitetin idman zalı da əsaslı şəkildə təmir edilərək lazımi avadanlıqlarla təchiz edilmişdir.

Universitetdə tələbələrin maddi maraqlarının artırılması da diqqət mərkəzindədir. Əslində bu, təhsilin səviyyəsini yüksəltmək üçün fərqli yanaşmadır. Belə ki, rektorun xüsusi əmrinə əsasən, büdcədənkənar vəsait hesabına qəbul imtahanlarında 600-dən çox bal toplayaraq aqrar universitetə daxil olan və növbəti sessiyada yüksək qiymətlər alan 2 nəfər birinci kurs tələbəsinin aylıq təqaüdünə ikinci semestrdə 100 manat, 500-dən çox bal toplayaraq qəbul olunan 9 nəfər tələbəyə isə 50 manat əlavə edilir.

Azərbaycan Dövlət Aqrar Universitetinin çox yüksək səviyyədə tələbə yataqxanasının inşası bu istiqamətdə dövlət başçısı İlham Əliyevin göstərdiyi diqqət və qayğının ən bariz nümunəsidir. Gəncəyə tarixi səfəri çərçivəsində dövlət başçısının yataqxananın açılışında iştirak etməsi müəllim və tələbələrdə böyük ruh yüksəkliyi yaratmışdır. İndi istər müəllimlər, istərsə də tələbələr yaradılan bu şəraitə görə Prezident İlham Əliyevə minnətdarlıq edir, bu etimadı doğrultmaq üçün bundan sonra da var qüvvələrini əsirgəməyəcəklərinə inam ifadə edirlər.

Yüksək zövqlə və keyfiyyətlə tikilmiş bina tələbələrin sosial məsələlərinin həlli baxımından mühüm əhəmiyyətə malikdir. Burada təhsil müddətində tələbələrin yaşaması və dərsdən sonra istirahətləri üçün bütün imkanlar yaradılıb. Yataqxana kompleksinin dörd korpusu yeddimərtəbəli, bir korpusu isə altımərtəbəlidir. Əsas korpusun foyesində ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdikləri qayğını, həmçinin Gəncəyə səfərlərini əks etdirən fotolardan ibarət guşə yaradılıb. Binada qeydiyyat şöbəsi, zəngin kitabxana, stomatoloji kabinet, müayinə otağı, fotoatelye fəaliyyət göstərir. Binalarda akt zalı və fitnes zalları, ticarət , iaşə və məişət xidməti obyektləri fəaliyyət göstərir. Yataqxanadakı 257 otağın 251-i ikinəfərlik, 6-sı üçnəfərlikdir. Bütün mərtəbələrdə istirahət guşəsi və mətbəx var. Yataqxananın elektrik enerjisi üçün 1000 kilovoltluq güc transformatoru, isti və soyuq su ilə təminatı üçün qazanxana da quraşdırılıb.

Universitetin aqronomluq fakültəsinin I kurs tələbəsi Əfsəl Qazıyev deyir ki, 49 yaşı var. 4 uşaq atasıdır. Oğlunun biri hərbi xidmətdədir. Həyat elə gətirdi ki, arzusuna indi çatdı və yüksək balla aqrar universitetə daxil oldu. Yaşadığı Quba rayonunda onun ailəsinə böyük pay torpağı verilib. Ali təhsil almaqda da əsas məqsədi həmin torpağı savadlı aqronom kimi əkib-becərməkdir. Onun rahat təhsil alması üçün hər cür şərait yaradıldığını diqqətə çatdıran Əfsəl universitet rəhbərliyinə minnətdarlıq etdi və dedi ki, hətta aylıq təqaüdünə universitet şurasının qərarı ilə 200 manat pul da əlavə edilib. Bununla da dolanışığı təmin olunub. Söz yox ki, bütün bunlar ölkə rəhbəri İlham Əliyevin apardığı siyasətin məntiqi nəticəsidir.

Aqronomluq fakültəsinin III kurs tələbəsi Fəqan Musazadə isə deyir: "Mən uzun illərdir ki, idmanla məşğul oluram. Dəfələrlə mötəbər yarışlarda fəxri kürsünün ən yüksək pilləsinə qalxmışam. Keçən il Bakıda keçirilən karate üzrə dünya çempionatında birinci yerə çıxaraq qızıl medala sahib olmuşam. Yataqxanamızda idmançılar üçün yaradılan şərait nümunəvidir. Hətta idman nailiyyətlərimi nəzərə alan universitet rəhbərliyi məni yataqxanadakı idman zalında yarımştat məşqçi vəzifəsi ilə də təmin edib. İndi həm oxuyur, həm də gənclərin idmana olan marağını artırmağa çalışıram. Bunun üçün tələbə yataqxanasında hər cür şərait yaradılıb. Buna görə dövlət başçısı İlham Əliyevə bütün idmançılar adından minnətdarlığımı bildirirəm".

Bu gün ölkəmizdə aqrar sahənin sürətli inkişafı istiqamətində böyük layihələr həyata keçirilir. Bu layihələrin istər indi, istərsə də gələcəkdə uğurla icra olunmasında Azərbaycan Dövlət Aqrar Universitetinin də üzərinə böyük vəzifələr düşür. Bütün bunları yaxşı dərk edən ali təhsil ocağının professor-müəllimləri, eləcə də tələbələri bu gün qazandıqları hər bir uğuru Prezident İlham Əliyevin göstərdiyi diqqət və qayğının nəticəsi kimi dəyərləndirir və bütün bunlara görə dövlət başçısına minnətdarlıq edirlər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*